

**Əliyev Cavid Şaban oğlu**

Cavid Şaban oğlu Əliyev 10 may 1996-cı ildə Tovuz rayonunun Almalıtala kəndində anadan olub. 2002-ci ildə Tovuz rayonunun Almalıtala kənd tam orta məktəbinin birinci sinifinə gedib, 2006-cı ildən təhsilini C.Abdullayev adına Ağbaşlar kənd tam orta məktəbində davam etdirib. 2013-cü ildə Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin "Vergi işi" ixtisasına daxil olub. 1 il təhsil aldıqdan sonra 2014-cü ildə təhsilini yarımçıq qoyaraq hərbi xidmətə gedib.

Cavid Əliyev 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət edib. Azərbaycan Ordusu sıralarından təxris olunduğdan sonra təhsilini başa vurub.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün Vətən müharibəsi başlananda, Cavid Əliyev SHXÇDX-yə müraciət edib və müharibəyə yollanıb. Snayper olan və onlarla erməni hərbçini öldürən Cavid Əliyev, noyabrın 9-da Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Noyabrın 16-da Tovuz rayonunda dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Əliyev Cavid Şaban oğlu "Vətən uğrunda", “Cəsur döyüşçü”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.